# Heç kəs unudulmur

## Vətən müharibəsi fədailəri

## Şəhadətə qovuşanlar

Vətəni Vətən edən onun üçün canını fəda edənlər-dir.O kəslər ki, xalqını, doğulub boya-başa çatdığı torpağını sevər, öz mənafeyini deyil, yurdunun, xalqının


Şəhid Mikayıl Mikayıllının ildönümü.

gələcəyini düşünər, gözünü qırpmadan şəhadət yolunu seçər, təki "Vətən sağ olsun!"–deyərlər. Onların bir adı var–Şəhidlər!


Şəhid Elməddin Mustafayevin ildönümü.

44 gün davam edən və zəfərlə nəticələnən Vətən müharibəsində qəbələli gənclərdə fəal iştirak etmiş, vətənin əsl oğul balaları, vətənpərvər igidləri kimi qəhrəmanlıq şücaətləri göstərmiş, vətən uğrunda canlarından keçərək şəhadətə qovuşmuşlar. Oktyabr ayında şəhadətə qovuşanlardan Mıxlıqovaq kənd sakini Mikayıl Miğfər oğlu Mikayıllı (24.12.1993-01.10.2020), Əmirvan kənd sakini Elvin Əbülfəz oğlu Abdurahmanov (01.10.1996-03.10.2020), Mıxlıqovaq kənd sakini Ümman Namiq oğlu Əmiraslanov (21.11.1996-03.10.2020), Bum qəsəbə sakini Vasif Akif oğlu Süleymanov (20.05.1998-07.10.2020), Tüntül kənd sakini Kərimov İsmayıl Abbas oğlu (03.11.1990-06.10.2020), Yeni Dızaxlı kənd sakini Cəlilov Tural Cəllad oğlu (10.04.1996-07.10.2020), Çuxur Qəbələ


Şəhid İqbal Babayevin ildönümü.

kənd sakini Şirinov Taleh Qadir oğlu (21.11.1996-08.10.2020), Kiçik Əmilli kənd sakini Bayramov Coşqun Ənvər oğlu (25.05.1991-08.10.2020), Qəbələ şəhər sakini Mustafayev Elməddin Məhəmməd oğlu (01.05.2001-10.10.2020), Əmirvan kənd sakini polkovnik-leytenant Abdurahmanov Əfqan Ağasəf oğlu (25.05.1976-11.10.2020), Mıxlıqovaq kənd sakini Yusifov İmaməddin Niyaməddin oğlu (22.07.2002-11.10.2020), Böyük Pirəli kənd sakini Eyyubov Sərvan Yusif oğlu (02.11.1998-12.10.2020), Bunud kənd sakini, mayor İsmayılov Natiq Əjdər oğlu (05.03.1980-17.09.2020), Yeni Dızaxlı kənd sakini Səfərçinov Xeyirbəy Cəlil oğlu (05.10.1993-22.10.2020), Qəbələ şəhər sakini İqbal Zəki oğlu Babayev (10.09.1994-28.10.2020), Əmirvan kənd sakini Aydın Mətləb oğlu


Şəhid Tale Şirinovun ildönümü.


Şəhid Sərvan Eyyubovun ildönümü.


Şəhid Rüstəm Atakişiyevin ildönümü.

Bayramovun (02.08.1997- 28.10.2020) məzarları ziyarət edilmişdir.

Bu ziyarətdə rayon icra hakimiyyətinin, hüquq-mü-


Şəhid Aydın Bayramovun ildönümü.

hafizə orqanlarının, idarə, müəssisə təşkilatlarının rəhbərləri və şəhidlərin təhsil aldıqları məktəblərin kollektivi, şəhidin qohumları və ailə üzvləri iştirak etmiş, ruhlarına dualar oxunmuş, məzarları üzərinə gül dəstələri qoyulmuşdur. Şəhidlərin ailə üzvləri dövlət tərəfindən göstərilən diqqət və qayğıya görə dövlət rəhbərliyinə öz minnətdarlıqlarını bildirmişlər.

## Təltiflər

Onlar Vətən torpaqlarını yağılardan təmizlərkən heç bir təltif düşünməmişdilər. Onların ən böyük təltifi əsirlikdən azad olmuş ərazilərdə şanlı bayrağımızın dalğalanması idi! Onlar bu bayrağı dalğalandırdılar və ölkəmizə ən yüksək adı–qalib ölkə titulunu bəxş etdi-



Şəhid polkovnik-leytenant Əfqan Abdurahmanov və İmaməddin Yusifovun ildönümü.


Şəhid mayor Natiq İsmayılovovun ildönümü.



Şəhid Xeyirbəy Səfərçinov və Coşqun Bayramovun ildönümü.

lər. Qalib ölkə–vətəninin şəhidi adını isə özləri üçün titul qazandılar!

Şəhid Xeyirbəy Səfərçinov döyüşlərdəki igidliyinə görə ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Vətən uğrunda" medalı ilə, şəhid Elşən Dəmirli ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə, şəhid mayor Natiq İsmayılov "Vətən uğrunda" medalı və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə, şəhid Şöhrət Mikayılov isə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən "Şücaətə görə" medalı ilə təltif olunmuşlar. Şəhid valideynləri onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

## Evində ziyarət edilmişdir

Şəhid ailələri rayonumuzun məsul şəxsləri, idarə və müəssisə rəhbərləri, eləcə də ictimai təşkilatlar tərəfindən tez-tez ziyarət edilirlər. Oktyabr ayında da şəhadətə qovuşan bir çox şəhid və qazi ailələri evlərində ziyarət edilmişlər. Şəhid ailələri göstərilən diqqət və qayğıya görə, sosial təminatlarının yaxşılaşdırılması istiqamətində görülmüş işlər və aparılan islahatlara görə ölkə rəhbərliyinə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.